

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 215 (23.377)

*15 noyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sammitin açılış mərasimində iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirilib.

Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə nitq söyləyib.

* * *

Dövlətimizin başçısı noyabrın 14-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 14-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Litva Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ilə görüşüb.

Ali Məclisin Sədri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik etmiş və Naxçıvana səfərinin əhəmiyyətini vurğulamışdır. Muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Litva arasında kənd təsərrüfatı, təhsil və turizm sahələrində əməkdaşlıq üçün potensialın olduğunu bildirmişdir.

Səfir Eqidius Navikas Azərbaycanda diplomatik fəaliyyətə başlaması və Naxçıvana səfərindən məmnunluğunu ifadə etmiş, Litva və Azərbaycan arasındakı mövcud əlaqələrdən danışmışdır. Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini bildirən diplomat bu sahədə səylərin artırılacağını qeyd etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikanın infrastruktur təminatı yenilənir

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq muxtar respublikada əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilmiş, yeni istehsal və xidmət sahələri, təhsil, səhiyyə və digər infrastruktur obyektləri istifadəyə verilmişdir. Bütün sahələrdə yaradılmış müasir infrastruktur təminatı əhalinin rahatlığının təmin edilməsinə və sosial müdafiəsinin gücləndirilməsinə yeni imkanlar yaratmaqla yanaşı, ümumi inkişafı da sürətləndirmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq 2019-cu ilin yanvar-sentyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 790 milyon 838 min 900 manat vəsait yönəldilmişdir ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə çoxdur.

***Yanvar-sentyabr ayları üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, min manat***




Ümumilikdə, 2009-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada iqtisadi və sosial sahələrə 9 milyard 435 milyon 326 min 200 manat vəsait yönəldilmişdir. Vəsait qoyuluşlarının 8 milyard 522 milyon 233 min 600 manatı və ya 90,3 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

Bu dövr ərzində muxtar respublikada infrastruktur quruculuğu tədbirləri çərçivəsində 100 elm və təhsil müəssisəsi, o cümlədən 20 min 114 şagird yerlik 66 ümumtəhsil məktəbi, 187 inzibati bina, 19 nasos stansiyası, 88 subartezian quyusu, 50 körpü, 216 mədəniyyət obyekti, 113 səhiyyə müəssisəsi, 668 istehsal və xidmət sahəsi, 11 idman və bir sıra digər obyektlər tikilmişdir. Bundan əlavə, bu dövrdə 103 elm və təhsil müəssisəsi, o cümlədən 36 min 786 şagird yerlik 77 ümumtəhsil məktəbi, 81 inzibati bina, 17 nasos stansiyası, 19 subartezian quyusu, 17 körpü, 100 mədəniyyət obyekti, 20 səhiyyə müəssisəsi, 15 idman və bir sıra digər obyektlər yenidən qurulmuşdur.



Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 2009-cu ildən 1 oktyabr 2019-cu il tarixə muxtar respublikada 4 qəsəbə və 124 kənd mərkəzi istifadəyə verilmişdir.

Əhalinin rahatlığına və yaşayış standartlarının yüksəldilməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən işlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması xüsusilə diqqətdə saxlanılmışdır. Bu istiqamətdə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Hacıniyyət və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su və kanalizasiya sistemlərinin, Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin və Şərur rayonunda sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir.

İnfrastruktur quruculuğunda əhali tərəfindən həyata keçirilən vəsait qoyuluşları da mühüm rol oynamış, cari ilin yanvar-sentyabr aylarında muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 370 min 127 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfə çoxdur.

İqtisadiyyatın aparıcı qüvvəsi olan nəqliyyat sektorunun artan əhali tələbatına uyğun olaraq səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilmiş, 2009-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada 1246,6 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövr ərzində hava və dəmir yolu nəqliyyatının



inkişafı istiqamətində infrastruktur yenilənmiş, inzibati və yardımçı binalar istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. İnformasiya və rabitə sahəsində aparılmış tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikanın yaşayış ərazilərinin 99,1 faizində genişzolaqlı, 99,5 faizində isə simsiz internet xidməti göstərilmişdir.

Muxtar respublikada sosial-iqtisadi sahələrin tarazlı inkişafını təmin etmək məqsədilə aparılan siyasətin nəticəsi olaraq nəqliyyat, rabitə, enerji, su təchizatı, maddi təchizat, eləcə də digər infrastruktur sahələrində mühüm irəliləyişlərə nail olunmuş, əhalinin yaşayış səviyyəsi daha da yaxşılaşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

"Ailə təsərrüfatları ili" – 2019

## Tingçilik çox incə və ustalıq tələb edən işdir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublikada meyvə-tərəvəz məhsullarına olan tələbatı ödəməklə yanaşı, həmin məhsulların ixracına da şərait yaradıb. Bununla belə görülən kompleks tədbirlər çərçivəsində Naxçıvanda yeni meyvə bağları salınıb, məhsul istehsalı artırılıb. Dövlət proqramının uğurlu icrası əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməklə yanaşı, məşğulluğun təmin edilməsinə də stimul verib.*

Bu tədbirlər muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunan 2019-cu ildə daha geniş vüsət alıb. Elə bunun ifadəsidir ki, bütün bölgələrimizdə bu sahəyə diqqət yetərincədir. Şərur rayonunun Oğlanqala kənd sakini, ailə təsərrüfatı başçısı Urman Seyidov uzun illərdir ki, Mahmudkənddə tingçilik təsərrüfatı yaradıb. O, icarəyə götürdüyü 1,5 hektarlıq sahədə müxtəlif növ meyvə tingləri yetişdirir. Təsərrüfatda tinglərə mövsümə uyğun olaraq qulluq göstərilir, yeni tinglər yetişdirilir. Ailə təsərrüfatı başçısı bildirir ki, tingçilik çətin olsa da, o, bu işi çox sevir. Hansısa bir meyvənin çəyirdəyini torpağa əkib aylarla, bəzən isə illərlə ona qulluq edirsən ki, yaxşı bir ting yetişdirə biləsən. Onun qayğısına qalırsan ki, gələcəkdə köçürüldüyü ərazidə yaxşı kök ata bilsin. Kiçik fidanlar çox kövrək olur. Payızın sonunda calaq vurulması, tinglərin əkilməsi və qulluq qaydaları haqqında danışan təsərrüfatçı bildirir ki, tingçilikdə əsas amillərdən biri də calaq işidir:



– Calaq vurmaq ustalıq tələb edir. Yay mövsümündə meyvəsi bəyənilən ağaclara nişanələr qoyulur. Calaq vaxtı həmin ağacların birillik zoğundan göz kimi istifadə olunur. Sentyabrın 20-dən sonra vurulan calaqların sarğısı mart ayında açılır. Calanmış gözlərin yazda – oyanmazdan əvvəl hər toxmacarın gözdən yuxarı hissəsi kəsilib atılır. Calaq iki ilə başa gəlir. Diyarımızda elə ağaclar var ki, onların tingləri alınıb ölkəmizin digər rayonlarında əkilir. Ancaq məhsuldarlıq Naxçıvandakı qədər olmur. Onların meyvəsi başqa yerlərdə cırlaşır. Məsələn, elə götürək göyçəni. Bu ağac ölkəmizin müxtəlif yerlərində də əkilib-becərilir, amma onların meyvəsi Naxçıvan torpağında bitən göyçənin yerini vermir. Zəfəran hulusu başqa rayonlarda da yetişdirilir, lakin buradakı ətri vermir. Hər torpağın özünəməxsus meyvə-tərəvəzləri var, elə ona görə də mən ting mövsümündə bağ salmaq istəyənlərə deyərdim ki, başqa yerlərdən gətirilən tinglərdən yox, öz iqlim şəraitimizə uyğun yetişdirilənlərdən alıb əksinlər. Onda daha az zəhmət müqabilində daha yaxşı məhsuldarlıq əldə edə bilərlər.



Müsahibim deyir ki, ağac var meyvəsinin çəyirdəyi, ağac var calaq yolu, ağac da var ki, çubuqları ilə artırılır. Bir sözlə, torpaqla yanaşı, gərək həm də ağacların dilini biləsən ki, zəhmətinin qarşılığını da alasan.

Təsərrüfatçı onu da əlavə edir ki, ting satışında canlanma payızın sonu və qış fəslində müşahidə olunur. Bu dövr əkin üçün əlverişli zaman sayılır. Noyabr ayından etibarən ting əkinləri başlanılmalıdır. Məhz bu vaxt əkilən ting yaxşı tutur, tez inkişaf edir və bol məhsul verir. Belə ki, payızda əkilən ting tutmayıbsa, fevral ayında onların yerinə yenilərini əkmək olar. Mart-aprel ayında əkilən tinglər isə ya quruyur, ya da yaxşı inkişaf etmir. Payızda əkilən meyvə ağaclarının yazda köçürülənlərdən bir üstünlüyü də var. O da qulluqla bağlıdır. Yazda əkilən meyvə ağacları payızdakı əkindən köçürülmə olduğundan kök sistemi zədələnir və bərpa prosesi müəyyən vaxt tələb edir.

Müsahibim onu da deyir ki, istər payızda, istərsə də yazda ting əkini zamanı havanın temperaturuna diqqət etmək lazımdır. Torpağın quruluğu və nəmliyi də önəmlidir. Orta nəmlik daha sərfəlidir.

Urman deyir ki, dekorativ ağac tinglərini meyvə ağaclarından fərqli olaraq ilin bütün fəsillərində əkmək mümkündür. Lakin mütəxəssislər belə ağacların toxumlarını da payızda əkməyi məsləhət görürlər. Çünki dekorativ ağaclar da toxumdan əmələ gəlir. Yalnız bir ildən sonra onların tingini əkmək düzgün olduğuna görə bu proses payızda aparılır. Torpaqdan çıxarılaraq əkilən tinglərdən fərqli olaraq dibçəkdəkiləri ilin bütün fəsillərində əkmək olar. Əkilən ağacların suvarılmasına diqqət etmək lazımdır. Dekorativ ağacları şaxta düşənə kimi suvarmaq olar. Yeni calaq vurulan meyvə ağaclarının suvarılması işi vacib deyil. Ağac calandıqdan bir gün sonra suvarılır, daha sonra həmin ağacın suvarılmasına bir də yaz aylarında başlanılır. Alma, armud, gilas, heyva ağaclarına sentyabr ayının axırında calaq vurulur.

Müsahibim deyir ki, ötən ay keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında iştirak edib. Oraya nalbənd tingləri gətirən zəhmət adamı tinglərin hamısını satdığını və torpaq adamlarının bir neçəsindən yeni bağlar salmaq üçün ting sifarişi aldığını bildirir. O, xüsusi olaraq vurğulayır ki, bu cür tədbirlərin təşkili bizim kimi zəhmət adamlarına göstərilən qayğıdan xəbər verir.

Bu gün burada gördüklərimdən belə qənaətə gəldim ki, muxtar respublikada meyvəçiliyin inkişafı ilə bağlı qəbul edilmiş adıçəkilən sərəncamdan irəli gələn vəzifələr uğurla yerinə yetirilir, daxili bazarda yerli meyvə məhsullarının xüsusi çəkisi artır.

**Ramiyyə ƏKBƏROVA**

*Dünən Sədərək rayonunda torpaqların elektron kadastr uçotunun aparılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirəni giriş sözü ilə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq tədbirin mahiyyətindən danışıb.*

## Müşavirə keçirilib



Muxtar respublikada torpaqlardan səmərəli istifadə sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə dəqiq kadastr uçotu işlərinin aparılmasının əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Vurğulanıb ki, təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq komitə tərəfindən torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması istiqamətində işlər yekunlaşmaq üzrədir. Artıq Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa və Kəngərli rayonları üzrə həyətyanı torpaq sahələrinin elektron taxometr vasitəsilə dəqiqləşdirilməsi başa çatdırılıb. Şahbuz rayonunun 11 yaşayış məntəqəsində işlər yekunlaşdırılıb, Sədərək rayonunda planaalma işlərinə start verilib. Görüləcək işlər nəticəsində torpaq sahələrinə dair hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqların aradan qaldırılması, torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotunun aparılması təmin olunacaq. Torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarəti güclənəcək, torpaq idarəçiliyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaradılacaq.

Müşavirədə komitənin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyevin, Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun direktoru Cəfər Əliyevin çıxışları dinlənilib.

Sonda müşavirə iştirakçılarının sualları cavablandırılıb, müzakirələr aparılıb.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti işini günün tələblərinə uyğun şəkildə qurub



*Muxtar respublikada xarici iqtisadi əlaqələrin genişləndirilməsinə böyük diqqət və qayğının göstərilməsi, ixracın stimullaşdırılması sahəsində qəbul edilən qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi istehsal olunan məhsulların ixrac imkanlarının artmasına, iqtisadi əlaqələrimizin genişlənməsinə, məhsullarımızın dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına zəmin yaradıb.*

Təsdiq edilmiş dövlət proqramlarının uğurla yekunlaşması və icrasının davam etdirilməsi, eləcə də həyata keçirilən davamlı islahatlar nəticəsində muxtar respublika iqtisadiyyatının möhkəm təməli yaradılıb və sosial-iqtisadi inkişafın dinamikliyi təmin edilib.

Son illər Naxçıvanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar da istehlakçı hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaradıb.

Bu gün 433 sənaye müəssisəsinin fəaliyyət göstərməsi nəticəsində Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edən aqrar-sənaye diyarına çevrilib. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Bu da daxili bazarın qorunması, xaricə valyuta axınının qarşısının alınması, idxaldan asılılığın aradan qaldırılması və istehlakçı hüquqlarının qorunması baxımından əhəmiyyətlidir.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də ölkədə istehsal olunan və idxal yolu ilə gətirilən məhsulların orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanmasıdır.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası işini günün tələblərinə uyğun şəkildə davam etdirir. Məhz bunun nəticəsidir ki, 2019-cu ilin yanvar-sentyabr ayları ərzində 691 halda hüquqi və 944 halda fiziki şəxslər tərəfindən daxil olmuş 72 mal çeşidini əhatə edən 840 halda səyyar və 1635 halda mal nümunəsi laboratoriya analizindən keçirilib. Aparılmış laboratoriya təhlilləri, əsasən, 1281 yerli istehsal məhsullarını və 354 idxal məhsullarını əhatə edib. Nəticədə, 1629 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 6 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib.

Muxtar respublikada istehsal olunan məhsulların ixracı məqsədilə "Ləzzət Biskvit və Şokolad Fabriki", "Naxçıvan Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi", "Cahan Tabak Beynəlxalq", "Miraj Gold", "Cahan Pen", "Cahan İnşaat", "Dizayn İnşaat", "Gəmiqaya Mineral Sular", "Cahan Sənaye Kompleksi", "Naxçıvan Sement Zavodu" Məhdud Məsuliyyətli cəmiyyətlərinə, "Babək Sirab" Açıq Səhmdar Cəmiyyətinə müvafiq mənşə sertifikatları verilib. 2019-cu ilin 9 ayı ərzində 63 halda mənşə sertifikatının verilməsi təmin edilib. Bunlardan 31-i CT-1, 28-i ümumi, 4-ü isə A formalı mənşə sertifikatlarıdır.

Son olaraq qeyd edək ki, ölkəmizin qida sektorunda sayca 3-cü, muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin Mərkəzi qida sınaq laboratoriyası regionda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını davam etdirir.

Muxtar respublikada fəaliyyət göstərən və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri istehsal etdikləri məhsulların laboratoriya göstəricilərinin yoxlanılmasının beynəlxalq standartlar səviyyəsində həyata keçirilməsi və ixrac olunan məhsulların keyfiyyətinin yoxlanılması üçün laboratoriyanın xidmətlərindən istifadə edə bilərlər.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Pensiya və müavinətlərin ödənilməsi başa çatdırılıb

Naxçıvan Muxtar Respublikasında əhalinin, xüsusilə də pensiyaçıların sosial müdafiəsi həmişə diqqət mərkəzində saxlanılıb. Muxtar respublika rəhbərinin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində əməkhaqları, pensiya və müavinətlər hər ay vaxtında ödənilir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu muxtar respublika əhalisinin sosial müdafiəsinin gücləndirilməsi və vətəndaşların pensiya təminatının təkmilləşdirilməsi məqsədilə mütəmadi tədbirlər görür.



Görülmüş tədbirlər nəticəsində noyabr ayı üçün bütün növ əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər də vaxtından əvvəl ödənilib. Eyni zamanda əmək pensiyasına çıxmış hərbi qulluqçu və xüsusi rütbəli şəxslərin pensiyası Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq yenidən hesablanaraq artırılıb və onların müvafiq kart hesablarına köçürülüb.

Muxtar respublikada pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi ilə yanaşı, yaşayış yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi işi də yüksək səviyyədə təşkil edilib. Bütün bunlar isə pensiyaçılara göstərilən xidmətin səviyyəsinin daha da yüksəlməsinə imkan yaradıb.

Qeyd etmək lazımdır ki, son zamanlar muxtar respublikada pensiyaların poçt bölmələrindən alınması üçün edilən müraciətlərdə artım müşahidə olunub.

Əhalinin aztəminatlı hissəsi olan pensiyaçıların sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən tədbirlərin icrası ilə bağlı müvafiq işlər bundan sonra da davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

Təhsil millətin gələcəyidir

*Ölkəmizdə təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.* ***“Bizim gördüyümüz işlər, təhsil sahəsində həyata keçirdiyimiz islahatlar Azərbaycan dövlətini daha da yüksəltməyə yönəldilibdir”****, – deyən görkəmli dövlət xadiminin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının təməlini yaradıb, müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilib, Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub.*

# Muxtar respublikada aparılan uğurlu təhsil siyasəti güclü intellektual potensial hazırlığına xidmət edir



Bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirilib. Ölkə rəhbərinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində Azərbaycanda sosial-iqtisadi inkişafla yanaşı, elmi intellektual tərəqqiyə də nail olunub, dövrün tələbləri ilə uzlaşan təhsil islahatları həyata keçirilib. Bu gün Azərbaycanda milli maarifçilik ənənələri saxlanılmaqla dünya təhsil sisteminə inteqrasiya prosesi gedir. Ölkəmizdə təhsilin müasirləşdirilməsi və problemlərinin mərhələli həlli, müəllim kadrlarının hazırlığı, inkişaf etmiş dövlətlərin bu sahədəki zəngin təcrübəsinin mənimsənilməsi, ümumtəhsil məktəblərində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi məsələləri də dövlət başçısının xüsusi diqqət mərkəzindədir.

Bu gün muxtar respublikamızda da təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafı prioritet istiqamət təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada müasir təhsil infrastrukturu yaradılıb. Belə ki, muxtar respublikada orta, orta ixtisas və ali təhsil, həmçinin elm müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib. Daha dəqiq desək, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu gün həmin məktəblərin hər birində kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarındadır.

Yaradılan yüksək təhsil mühitinin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərirlər. Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada təhsilin inkişafı beynəlxalq aləmə inteqrasiya, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsi, yüksəkixtisaslı kadr hazırlığı işinə müasir yanaşmanı əhatə etməklə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil siyasətinə əsaslanır”.***

Bu il muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən 2564 məzun ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib, onlardan 1500-ü ali, 200-ü müxtəlif ali hərbi, 245-i isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb. Ümumilikdə, tam orta təhsil bazasından ali və orta ixtisas məktəblərinə 1945 məzun qəbul olunub. Tələbə adını qazananların 281-i 500-700 arası bal toplayıb, onlardan 4-ü Prezident təqaüdünə layiq görülüb.

Hər il yüksək bal toplayan tələbələrlə Ali Məclis Sədrinin görüşü də artıq ənənə halına çevrilib. Cari ildə yüksək bal toplayan tələbələrlə keçirilən görüşdə Ali Məclisin Sədri demişdir: ***“Təhsil siyasətinin mühüm prinsipləri gənclərin milli dəyərlər əsasında tərbiyələndirilməsi, mənəvi cəhətdən sağlam və iradəli gəncliyin yetişdirilməsi olmalıdır. ...Siz, vətənimizin və xalqımızın inkişafı naminə yaxşı təhsil almalı, seçdiyiniz ixtisası mükəmməl öyrənməli, öz peşənizin sahibinə çevrilməlisiniz. Hər biriniz müstəqil Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımalı, ana dilini və Vətən tarixini dərindən öyrənməli, milli dəyərlərimizə sahib çıxmalı, mənsub olduğunuz xalqın layiqli vətəndaşı olmalısınız”.***

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də davamlı xarakter alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılıb. Bununla yanaşı, müəllimlərin işə qəbulu şəffaflıq və obyektivlik baxımından təkmilləşdirilib, muxtar respublikada 2018-ci ildən etibarən müəllimlərin işə qəbulu sahəsində mərkəzləşdirilmiş müsabiqə mexanizmi tətbiq edilib, bunun da nəticəsində ümumtəhsil məktəblərinin bilikli kadrlarla təminatı yaxşılaşdırılıb.

Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda güclü intellektual və kadr potensialının hazırlanmasına şərait yaradır. O da xüsusi vurğulanmalıdır ki, bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. Bu baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri dünyanın qabaqcıl ali təhsil müəssisələri səviyyəsində güclü infrastruktura malikdir. Naxçıvan Müəllimlər İnstitutunun yeni tədris korpusunda fəaliyyətini davam etdirməsi diyarımızda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu təhsil ocağının formalaşdırılması, onun müstəqil ali məktəbə çevrilməsi, elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində xeyli iş görülüb.

Ölkə başçısının iştirakı ilə istifadəyə verilmiş altımərtəbəli ali təhsil ocağında, ümumilikdə, 43 auditoriya, o cümlədən 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları və bir sıra fənn kabinələri üçün tədris fondları müəllim və tələbələrin ixtiyarına verilib. Fənn kabinələri tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada Azərbaycan ali təhsilində ilk dəfə olaraq professor-müəllim heyəti üçün 3 fərdi məsləhət otağı və psixoloji xidmət laboratoriyası yaradılıb. Təbii ki, yaradılan şərait biz müəllimlərin, pedaqoji kollektivin məsuliyyətini daha da artırıb, müəllimlərə əlavə stimul verib. Bu da ixtisaslı kadr hazırlığında başlıca amillərdən biridir.

Məlum həqiqətdir ki, elm biliyə, savada əsaslanır. Ulu öndərin ardıcıl diqqəti sayəsində bu gün artıq Azərbaycan elminin mükəmməl təşkilati strukturu formalaşıb, elmi araşdırmaların həyata keçirilməsi sistemli xarakter alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və uğurla həyata keçirilən elm siyasətinə xüsusi əhəmiyyət verilməsinin və muxtar respublikanın hərtərəfli və dinamik inkişafında bu sahənin də formalaşmasına qayğının ifadəsidir. Fondun yaradılması dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən elmi-tədqiqat proqramlarının və layihələrin qrant şəklində maliyyələşdirilməsinə imkan verəcək addımdır. Həmçinin bu, alimlərin elmi fəaliyyətlərinin stimullaşdırılmasında, muxtar respublikada elmi-texniki potensialın qorunmasında, iqtisadiyyatın inkişafında təbii resursların, mədəni və tarixi irsin öyrənilməsində, elmi araşdırmaların səmərəliliyinin artırılmasında, müxtəlif layihələrin dəstəklənməsində böyük stimul olacaqdır. Fondun yaradılması elmin inkişafına, yeni-yeni tədqiqat işlərinin aparılmasına da təsir göstərəcəkdir. Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrə bağlı müşavirə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Elmdə son hədd, axırıncı tədqiqat anlayışı yoxdur. Elm davamlı inkişafdır. Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir”.***

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

# Yeni yol, müasir məktəb, işıqlı gələcək...




*Xətai və Yeni Havuş... Azərbaycanımın bu kiçik kəndləri böyük sevinc yaşayır. Salamlamaq istədik bu yurd yerlərini. Yeni yolun mübarək olsun, – deyib, dayandıq Xətai və Yeni Havuş adlarının qarşısında. Bir fotoda əbədiləşdi bu adlar və hamar yollar. Gördüm iki gənc gəlir. Yaxınlaşdıq, salamlaşdıq. Xətai kəndindən olan bacı-qardaş – Əli və Xədicə ilə söhbətləşdik. Ali məktəbə hazırlaşan bu iki gəncə uğurlar arzulayaraq yola davam etdik.*

İki kənd arasında sıralanan müasir binalar. Xoş arzu ilə dayandıq bu binalar qarşısında. Aidə adlı bir xanımla həmsöhbət olduq. Üç oğul anasıdı. Böyük oğlu sərhəddə yerləşən Havuşda xidmət edir. Əsgərlikdən yeni qayıdan digər oğlu bu günlərdə istifadəyə verilən xidmət mərkəzində çalışır. Kiçik oğlu... Elə bu an yanımıza öz dəcəlliyi ilə diqqətimizi yayındıran Elnar gəldi. Birinci sinifdə oxuyur. Onunla qısa zamanda dostlaşdıq. Əlimdən tutub yeni məktəb binasını göstərdi. Əlavə sözə ehtiyac yox idi. Balaca ürəkli Elnarın sevinci gözlərindən oxunurdu. Elnarın sevincinin təkcə Şərurun deyil, Naxçıvanın, nəticə etibarilə, ölkəmizin sevinci olduğunu düşünürük. Soruşanda: “Böyüyəndə kim olacaqsan?”, “Uşaqların müəllimi”, – deyə cavab verir. Cavabına gülümsəyib yolumuza davam etdik.

Bir az irəlilədik. Yolun sol tərəfində köhnə məktəb binası və digər tikililər gözümüzdən yayınmadı. Dünənə qədər bu binalardan istifadə olunub. Bu gün həmin binaları müqayisə olunmaz dərəcədə yeniləri əvəz edib. Bir daha sevinirsən ki, Yeni Havuş sakinlərinin artıq bu köhnə və yararsız tikililərə ehtiyacı yoxdur.

Kənddə ən yaxşı müsahiblərim uşaqlar oldu. Gülay, Röyal, Murad və başqalarının arzuları böyük idi. Kimisi həkim, kimisi hərbçi, kimisi müəllim olmaq istəyir. Artıq onların qarşısında heç bir maneə yoxdur. Səliqəli yollar və müasir məktəb binası. Şəhərdəki məktəblərdən fərqi



yoxdur: müasir sinif otaqları, hərbi kabinə, tədris proqramına və dərs vəsaitlərinə uyğun avadanlıqları olan kimya-biologiya və fizika laboratoriyaları, şahmat və kompüter otaqları. Məktəbdə internet də var, 3 elektron lövhə quraşdırılıb. Şagirdlərə yalnız yaxşı oxumaq və vətənpərvər gənc kimi yetişmək qalır. Belə olacağına isə heç də şübhə yoxdur. Söhbətimdə onlarda olan Vətən sevgisini gördüm.



Yeni Havuş kəndindəki köhnə məktəb binası

Əksəriyyəti də hərbçi olmaq istəyir. Çünki düz yüksəklikdə – Havuş kəndində sərhədlərimiz qorunur, Vətənimiz qorunur. Onların bu arzusuna təəccüblənmədik. Vətənimizi göz bəbəyi kimi qoruyan gəncliyimiz yetişir. Sevindik, qürurlandıq. Əmin olduq ki, vətənpərvər olan bu yeniyetmələr indidən özlərini Vətənin gələcək qurucusu kimi hiss edirlər. Axı qurucu rəhbərimiz müasir məktəb binasının açılışında bir məsələni xüsusilə vurğulayaraq deyib ki, məktəbdə gənclərə təhsil vermək işin bir tərəfidirsə, onların vətənpərvər yetişdirilməsi isə qarşıda duran əsas vəzifədir.

Yeni məktəb binasının həyətində yeni əkilmiş ağaclar və güllər var idi. O anda düşündüm ki, bir neçə il sonra bu fidanlar qollu-budaqlı ağaclara, ətrafa rayihə yayan güllərə çevriləcək. Burada gördüklərimizdən bir əminlik hasil oldu ki, kənd sakinləri bu qurulub yaradılanları qoruyacaq, gələcək nəsillərə ötürəcək.

Yolumuza davam edirik. Payız fəslinin kənddə yaratdığı gözəlliklər musiqi, şeir, qəzəl kimi ruhumuzu oxşayır. Sarı yarpaqların xalı naxışı Yeni Havuşa ayrı gözəllik qatıb. Sanki bu gələn payız da bilir ki, kənd yeni günlərini yaşayır. Kənddə hərə öz işində... Kimisi həyətində payızlıq məhsullarını tədarük edir, kimisi evini qışa hazırlayır. Bütün həyətlərdə arı yeşikləri görmək mümkündür.



Həyətlərdən boylanan payız gülləri, sanki bizi salamlayır. Bir evin həyətinin fotosunu çəkmək istədik. Evdən səs gəldi. Səkinə xala idi. Hal-əhvaldan, arzu-diləkdən sonra bizi həyətə dəvət etdi. Həyətdə hər şey sadə, hər şey incə zövqlə... O andaca fikrimdən keçdi ki, həqiqətən də, çox gözəldi yurdumun insanları... Qonaqpərvərdirlər... Bu bizi ürəkdən sevindirdi. Lakin burada qeyri-adi bir şey yoxdur. Bu adət bizə dədə-baba mirasıdır, xalqımızın səciyyəvi cəhətidir. Bir hindistanlı turistin bu günlərdə dediyi kimi: Blokadada olub, eyni zamanda çox istiqanlı olmaq... İnsanlar çox səmimi və sevgi ilə doludur, dost qazanmaq bir gülümsəmə kimidir.

Yol alırıq Xətai kəndinə. Sıralanan yaraşıqlı evləri abad, səliqə-sahmanlı, həyət-bacaları da qəlb ovsunlayır. Kənd adamları ilə söhbətlərimizdən bir daha əmin oldum ki, bu insanlar milli adət-ənənələrimizə bağlı, qoçaq, mərd, qonaqpərvər, yurdsevər, səmimidirlər. Kəndin uşaqları şəhərdən gələn qonaq kimi bizi o saat dövrəyə alır. Onların gülüş səsləri ətrafa yayılır. Bu kəndin uşaqları gülür. Deyirlər, uşaq gülürsə, demək, bəşəriyyət gülür. Uşaqların gülüşü, rahatlığı cəmiyyətin xoşbəxtliyidir. O xoşbəxt uşaqlarla – Kənan, Sərxan, İnci, Ayşən, Südabə, Səkinə, Adəmlə söhbətləşdik. Vaxt gələcək onlar böyüyəcək, anlayacaq və qürur duyacaqlar ki, qurucu şəxsiyyət və rəhbər cənab Vasif Talıbovun tikib-qurduğu məktəbin yetirmələridirlər. Torpağına, dövlətinə bağlı, dövlətçiliyinə sadiq, ölkəsinin gələcəyini düşünən vətəndaşlar olmaq diləyi ilə kəndin payız mənzərələrini fotoaparatın yaddaşına köçürməyi də unutmadıq.

Ana yurdum Azərbaycanın müasir kəndlərini gördükcə qürurdan qürur bağlayırsan, yerə-göyə sığmayırsan. Dönüb baxırsan bir daha. Günəş şəfəqləri ilə parlayır kəndlər... Bir də quruculuq Günəşi... Onun nuru isə gələcəyimizi nurlandırır.

*Yeni günlərin mübarək deyib, Naxçıvan şəhərinə yol alırıq...*

**Sara ƏZİMOVA**
**jurnalist**

## Ümumdünya Diabet Günü münasibətilə tədbir



*Dünən Ümumdünya Diabet Günü münasibətilə Kəngərli Rayon Mərkəzi Xəstəxanasında "Diabet məktəbi" adlı tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açıb. Bildirib ki, Kəngərli rayonunda icbari tibbi sığorta sisteminin tətbiqi rayon sakinlərinin tibbi xidmətlərdən daha səmərəli istifadə etməsinə şərait yaradıb. Ancaq bütün bunlarla yanaşı, müxtəlif xəstəliklər də var ki, onların daim nəzarətdə saxlanılması qaçılmazdır. Belə xəstəliklərdən biri də şəkərli diabetdir.

Qeyd olunub ki, hər il noyabrın 14-ü Ümumdünya Diabet Günü kimi 160-dan çox ölkədə qeyd edilir. Azərbaycan Respublikasında şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyənləşdirən, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyən qanun və dövlət proqramı təsdiq edilib.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyevanın, şöbənin həkim-rezidenti Zeynəb İsmayılovanın, həmin şöbənin bölmə müdiri Gülşən Həsənquliyevanın müxtəlif mövzularda çıxışları dinlənilib.

Vurğulanıb ki, muxtar respublikamızda görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması yüksək səviyyədədir. Qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri xəstələrə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur. Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Muxtar Respublika Xəstəxanası və Diaqnostika Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb.

Qeyd olunub ki, hazırda dispanserin fəaliyyətində əsas diqqət xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsinə və xəstəlik nəticəsində meydana çıxan fəsadların qarşısının alınmasına yönəldilib.

Sonda şəkərli diabet xəstələrindən Hüseyn Cəfərlinin, Mütəllim Vəliyevin, Ceyhun Pənahovun xəstəliklə bağlı sualları cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

*"Naxçıvan" Universitetində "Müasir dövrdə gənclərin tərbiyəsində İslamın rolu" mövzusunda konfrans keçirilib.*

## Konfrans keçirilib



Konfransı giriş sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu Azərbaycanda mövcud olan dini tolerantlıq, multikulturalizm ənənələrinin təbliği sahəsində görülən işlərdən, İslam dininin dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətindən, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqinin zəruriliyindən danışıb, bu baxımdan konfransın xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevin "Cəmiyyətin inkişafında İslamın rolu" və universitetin Dinşünaslıq kafedrasının müəllimi Sabir Xəlilovun "Müasir gəncliyin əxlaqında İslamın rolu" mövzusunda çıxışları dinlənilib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Seyfur HACIMURADOV**

## Yeni lisenziyalar təqdim olunub

*Naxçıvan Şəhər Nəqliyyat İdarəsində bu münasibətlə keçirilən seminar-müşavirəni giriş sözü ilə Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov açıb.*



Xidmətin sektor müdiri Zaur Əliyev çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanında icrası nəzərdə tutulmuş məsələlərin həll edilməsi məqsədilə 2018-ci ilin noyabr ayının 1-dən etibarən lisenziyaların verilməsinə başlanılıb. Bununla əlaqədar maarifləndirici tədbirlər görülüb, muxtar respublika ərazisində avtomobil nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti göstərən 800-dən artıq sahibkara lisenziya verilib.

Diqqətə çatdırılıb ki, lisenziyanın qüvvədəolma müddəti bir ildir. Ötən il verilmiş lisenziyaların vaxtı bitdiyindən sənədləşmə işi yenidən aparılmalıdır.

Qanunsuz sərnişindaşıma fəaliyyəti göstərənlərə qarşı atılan addımlardan bəhs edilərkən vurğulanıb ki, ötən müddət ərzində xidmətin reyd komissiyası tərəfindən keçirilən reydlər zamanı qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən, eləcə də fərqlənmə nişanı almaqdan yayınan avtonəqliyyat vasitələri aşkar edilib, ümumilikdə, 173 avtonəqliyyat vasitəsinin sahibi haqqında məlumat cəza tədbiri görülməsi üçün aidiyyəti orqanlara göndərilib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Təbliğat işləri üzrə baş inspektoru, polis baş leytenantı Ayaz İsmayılov çıxışında sərnişindaşıma xidməti sahəsində qanunvericilikdə nəzərdə tutulan məsələlər barədə məlumat verib.

Sonra suallar cavablandırılıb, sahibkarlara yeni lisenziyalar təqdim olunub.

✍ **Nail ƏSGƏROV**

## Voleybol birinciliyi



10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar hazırlanan tədbirlər planına uyğun olaraq ali və orta ixtisas təhsili müəssisələrinin oğlan tələbələri arasında voleybol üzrə birincilik keçirilib.

Birincilikdə 80 tələbə iştirak edib. Maraqlı keçən oyunun yekununda "Naxçıvan" Universitetinin komandası birinci, Naxçıvan Dövlət Texniki Kollecin komandası ikinci, Naxçıvan Dövlət Universitetinin komandası üçüncü yerin sahibi olub.

Qeyd edək ki, qalib komandalar və iştirakçılar bu gün "Gənclik" Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

### Naxçıvan mətbəxi

## Ən dadlı və faydalı təamlardan biri

## Həmərsin məti

*Özünəməxsusluğu, zənginliyi ilə həmişə fərqlənən Naxçıvan mətbəxinin dadlı, faydalı təamlarından biri də həmərsindir. Həmərsinin bu mətbəxə məxsus dillər əzbəri olan çayından, həm çiçəyindən, həm də meyvəsindən hazırlanan mürəbbəsindən, kompotundan başqa, bir də məti vardır ki, doyumsuz dada, ləzzətə malikdir. Yazda çiçək açdığı vaxt dağların, yamacların açıq və tünd-çəhrayı, payızda meyvəsi yetişən vaxt qırmızı kələğayılı gözəli bu xoş görüntüləri ilə insanın gözünü, ruhunu necə oxşayırsa, saf, vitamin qaynağı çiçək və meyvəsindən hazırlanan təamlar da orqanizm üçün bir o qədər faydalı hesab olunur.*

Dağların təmiz havasından, bol oksigendən, Günəşin zərrin şüalarından qidalanan həmərsin payızın ortalarına doğru qızarmağa başlayır. Onu hər kəs dərə bilməz. Kollara necə yanaşmağın "dilini" bilən insanlar bu təbii sərvətdən öz payını ala bilirlər. Çünki həmərsin kolları olduqca tikanlıdır. Ona mərhəmətlə yanaşanlara, budaqlarını qırıb, ağacla döyəcləməyənlərə məhsulunu verir. Həmərsin kimi qiymətli bitkinin qədrini bilən insanlar da onun meyvəsini elə toplamağa çalışırlar ki, gələcək illərdə də yararlana bilsinlər.

Yazda çiçəklərindən mürəbbə bişirilən həmərsindən payızda – meyvələri yetişən zaman yığılıb həm mürəbbə, kompot hazırlanır, həm də qurudularaq qışa tədarük edilir. Yay-qış çayı içilən həmərsinin kompot, xoşab və mətinin isə bir ayrı ləzzəti vardır. Onun mürəbbə, kompot və çayından fərqli olaraq məti haqqında mənbələrdə çox az sayda yazı və məlumata rast gəldim. Bu məlumatlar arasında həmərsin mətinin hazırlanma qaydasını isə bu gün kəndlərimizdə yaşayan analarımızın, xanımlarımızın heç də hamısı bilmir. Elə buna görə də mətbəximizin bu ləziz təamının necə hazırlanması barədə Şahbuz rayonundan olan Bilqeyis xanımın söhbətini dinləyib, qələmə aldım ki, ləzzətli və faydalı həmərsin məti haqqında oxucularımızın da məlumatı olsun.



Bilqeyis xanım deyir: – Elə ki sentyabrın axırı, oktyabrın ortaları oldu, qızarıb yetişmiş həmərsinin dərilmə vaxtıdır. Qonum-qonşu yığılıb həmərsinə gedərik. Yığılması çox çətin olsa da, bir neçə dəfə getməklə lazım olan qədər həmərsin yığa bilirik. Mürəbbəsini, kompotunu hazırlayıb, qalanını açıq havada, kölgə yerdə qurudarıq ki, lazım olduqca çayını dəmləyək, bir də ki, mətini hazırlayaq. Qurudulmuş həmərsindən 1-2 vedrə ayırıb mət üçün saxlayırıq. Çünki az həmərsindən mət alınmaz. Həmərsin mətinə el arasında həmərsin turşusu da deyirlər. Bu təam qış uzunu, Novruz bayramı ərəfəsində, bir də xüsusi qonaqlıqlarda hazırlanır. Bunun üçün bir vedrə, vedrə yarım həmərsin götürülür, təmiz yuyulur, üzərinə bir vedrə su əlavə edilib qaynadılır. Nə üçün bir vedrə deyirəm, çünki həmərsini bundan az götürəndə onun məti alınmır. Həmərsin tam yumşalanda ocaqdan götürülür, soyumağa qoyulur. Soyuduqdan sonra boş bir qazanın, vedrənin üzərinə süzgəc qoyulur və bişmiş həmərsin süzgəcdən keçirilir. Bu zaman hökmən əlcək geyinilməlidir, çünki həmərsinin tikanları əlləri dalayar. Bu iş bitdikdən sonra əldə olunan məhlul yenidən bir dəfə də süzgəcin içərisinə sərilmiş tənzifdən keçirilir. Amma buna baxmayaraq, yenə də məhlulun içərisində tikanlar qala bilir. Bax bu, həmərsin mətinin hazırlanması üçün ən gərəkli bilgidir ki, onu əksər qadınlar bilmir. Buna görə də "Həmərsin mətini hazırlamaq zülmdür", – deyib, bu işdən boyun qaçırırlar. Hansı ki, qışboyu, Boz ay, qara yaz dediyimiz dövrlərdə, baharın əvvəllərində hələ çölün per-pencəri yeyilməyən, təzə meyvələr yetişməyən vaxt insan həmərsin mətindən ala biləcəyi vitamini başqa heç nədən ala bilməz. Bir də hər bir evin qadınının evdarlığının göstəricisi olan həmərsin mətindən çox süfrələri bəzəyən ikinci bir içki ola bilməz. Bu həm də Novruz süfrələrinə yaraşıq verən ən vacib təamlardan biridir. Həmərsin mətinin ən son – tikanlardan tamamilə təmizlənməsi prosesini söyləyim, bilməyənlər də öyrənsinlər deyə, Bilqeyis xanım söhbətini davam etdirir:

– Həm süzgəcdən, həm də tənzifdən keçirilmiş məhlulun içərisinə zövqə görə şəkər tozu qatılandan sonra yenidən ocağa qoyulur. Qazanın qapağı bu dəfə kip örtülür. Bu mərhələdə qazanı ocağın üstünə qoyub yanından ayrılmaq olmaz. Çünki həmərsin məhlulu qaynadıqca daşacaq. Bu zaman tez qapağı götürüb baxırsan ki, onun iç üzü tamamilə tikandır. Təmizləyib yenidən qazanın ağzına qoyursan. Bir neçə dəfə də təkrar edəndən sonra ta qapaqda tikan görünmür. Deməli, mət hazırdır. Bunun içərisinə düyü, bəzən ərik və alça qurusu da əlavə edirlər. Düyü qaynayarkən məhlulu lüğablandırır, onu qatı şəklə salır. Həm də ana-nənələrimizdən eşitmişik ki, düyü ruzi-bərəkətdir. Həmərsin mətinə bir-iki ovuc düyü atın, qoyun bərəkətli olsun. Rəhmətlik anama sual verərdim ki, axı bu mətə şəkər tozu da vururuq, buna niyə turşu deyirik? Cavab verərdi ki, şəkər tozu, ərik qurusu şirin olsalar da, nəticədə, mətin dadı meyxoş olur, ona görə buna həmərsin turşusu da deyirlər. Bilqeyis xanım söhbətini davam etdirib: "Hə, düyü də tam bişəndən sonra qazan ocaqdan alınıb soyumaq üçün kənara qoyulur", – deyir. Əvvəlcədən yuyulmuş, qaynar su ilə yaxalanmış şüşə banka və butulkalara yığılır, ağzı möhkəm bağlanılır. İstəyirsən həmərsin mətini payızda bax beləcə, hazırla qışa, Novruza saxla, ya da qurudulmuş həmərsindən saxla, istədiyin vaxt təzə-təzə hazırla. Onu da deyim ki, düzdür, həmərsin məti çox dadlı



və ləzzətli olur, adam içdikcə içmək istəyir, lakin nəzərə almaq lazımdır ki, həmərsinin çayı kimi, məti də qədərində içilməlidir, yoxsa insana zərər verə bilər. Çünki həmərsin qan təzyiqini aşağı salır.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, dağlarımızın bu zəngin tərkibli, əvəzsiz neməti duzlaşma, mədə ağrıları, sidik yolu iltihabı, sinir sisteminin problemlərində, qrip kimi bir çox xəstəliklərin müalicəsində əvəzsiz bitki hesab olunur. Həmərsin xərçəngin profilaktikasında və xroniki xəstəliklərdə də çox faydalıdır. İspaniyada aparılan bir araşdırmaya görə isə həmərsin çayının bağırsaq xərçənginin qarşısının alınması üçün hazırlanan dietlərdə çox aktiv tərkibli bitki olduğu təsdiqlənmişdir. Bitkinin tərkibi kalsium, dəmir, maqnezium, fosfor, sodium, sink, C, B, A, E, K vitaminləri ilə zəngindir.

Həmərsin, eyni zamanda orqanizmdəki xolesterolu azaldır. C vitamini ilə zəngin olduğundan immun sistemini gücləndirir, sümük zəifliyini aradan qaldırır, bədəndəki iltihabi prosesləri müalicə edir. Qanazlığı, revmatizm, şəkərli diabet xəstəliklərinin müalicəsində də əhəmiyyəti böyükdür. O həm də dərini gözəlləşdirir. Həmərsinin çoxları üçün əlçatmaz olduğunu, onu əldə etmək üçün xeyli vəsait xərclədiklərini də nəzərə alsaq, bizə Ulu Yaradan tərəfindən bəxş olunan bu dəyərli bitkinin qiymətini bilməli qalır. Həmərsin kollarını qoruyaq, meyvəsini budaqlarını qırmadan dərək ki, o, hər zaman bizim ola bilsin.

✍ **Mətanət MƏMMƏDOVA**

### İtmişdir

Babək rayonunun Nehrəm kəndində yaşamış Nəzərəliyeva Xədicə Baba qızının adına olan MH-000777 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Aşağı Aralıq kənd sakini Mahmudov Təhməz Yunis oğlunun adına olan JN-208 inventar nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 787